**KULTUROLOGİYA**

UOT 316.723

**Zəhra Qəniyeva**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, magistrant*
zehra.qeniyeva@mail.ru

# AZƏRBAYCANDA MULTİKULTURALİZM AZSAYLI XALQLAR KONTEKSTİNDƏ

**Açar sözlər :** *Azərbaycan, xalq, etnik qruplar, multikulturalizm, tolerant*
**Ключевые слова** *: Азербайджан, народ, этнические группы, мультикультурализм, толерантный*
**Key words :** *Azerbaijan, nation, ethnic groups, multiculturalism, tolerant*

Azərbaycan qədim tarixə, zəngin mədəni irsə və zəngin təbiətə malik olan diyardır. Tarixi keçmişdə müxtəlif sivilizasiyaların: Əhəməni-Sasani, Roma-Bizans, Skif-Xəzər, Türk-Oğuz mədəniyyətlərinin kəsişməsində bərqərar olmuş bu diyar Qərblə Şərq, Şimalla Cənub arasında “Qızıl körpü” rolunu oynamış, müxtəlif tarixi dövrlərdə yaşayış üçün əlverişli təbii şəraiti ilə bir çox qəbilə, tayfa və xalqları öz ərazisinə cəlb etmişdir (5).

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq beynəlxalq aləmdə daim tanınır. Dilimizdə yeni termin olan multikulturalizmin və onun ənənələrinin Azərbaycanda əsrlər boyu həmişə mövcud olduğu danılmaz gerçəklikdir. Cənab Prezident İlham Əliyev belə söyləmişdir: “Azərbaycanın timsalında multikulturalizm xalqımızın həyat tərzidir. Həmçinin bu yaşam tərzinin təbii və milli xasiyyətimizin bir parçası olmasını təsdiqləyir”.

Birgəyaşayış Azərbaycan üçün yeni mövzu deyil. Azərbaycan Respublikası bu ölkəni özünün doğma evi hesab edən xalqların təhlükəsiz yaşamaları və adət-ənənələrini qorumaları üçün dövlət səviyyəsində bütün imkanlarını səfərbər etmişdir. Bu gün dünya üçün multikulturalist dəyərlər nə qədər yeni olsa da, Azərbaycan bu dəyərlər sisteminə verdiyi töhfələri və nümunələri ilə tanınır.

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycan əhalisinin tərkibi də yekcins deyil. Burada da əsas xalqla yanaşı etnik və etnoqrafik qruplar yaşayırlar. Etnoqrafik qruplar öz təsərrüfat mədəni tiplərinə görə, etnik qruplar isə öz mənşəyi, dili və bir sıra əlamətləri ilə əsas xalqdan fərqlənirlər (2, 6-7).

Müasir dövrdə yaranmış vəziyyət etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün önəmini daha da

artırır. Xüsusən də multikulturalizm bu gün fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərdən biri kimi çıxış edir

Qədim Azərbaycan mədəniyyətindən söhbət açarkən həmin tarixin Alban dövrü kimi tanınan səhifəsinə nəzər yetirmək mütləq zəruridir. Strabonun məlumatına görə, Albaniya əhalisi 26 dildə danışan tayfalardan ibarət idi. Qaynaqlarda Albaniyada yaşayan xalq və tayfalar sırasında utilər, qarqarlar və amazonkalar, sovdelər, kaspilər, maqlar, sisaklar, mardlar və amardlar, ariaklar və anariaklar, qellər və leqlərin adları çəkilir. Bu tayfaların ən qədimləri Qafqaz və türk dillərində danışan avtoxton etnoslar olmuşlar. Qeyd etdiyimiz bu fakt da sübut edir ki, Azərbaycan ərazisində hələ ta qədim dövrlərdən müxtəlif etnoslar və tayfalar məskunlaşmışdılar.

Azərbaycan etnosunun tərkibini təkcə əhalinin 90%-ni təşkil edən yerli (aborigen) tayfa birləşmələri və xalqları deyil, həmçinin bu etnosun təşəkkülündə əsrlərdən bəri iştirak edən müxtəlif azsaylı xalqlar, etnik və milli qruplar təşkil edir. Azərbaycan əhalisinin əsas hissəsi azərbaycanlılardan və ölkənin müxtəlif guşələrində yığcam halda yaşayan 30 adda millət və etnik qruplardan ibarətdir. Onların arasında Altay ailəsinin türk qoluna məxsus azərbaycanlılar, tatarlar, ahısqa türkləri, həmçinin hind-avropa (tatlar, talışlar, dağ yəhudiləri, kürdlər), qafqaz (udilər, ləzgilər, avarlar, saxurlar, buduqlular, ingiloylar, qrızlar, xınalıqlar), slavyan (ruslar,malakanlar, ukraynalılar) dil qruplarının təmsilçiləri vardır. Bu xalqlar özlərini bizim qədər azərbaycanlı hesab edirlər. Azərbaycan ərazisində yaşayan azsaylı xalqların mədəniyyətləri Azərbaycan xalqının mədəniyyətinin tərkibində sanki göy qurşağına bəzəyir. 1992-ci ildə imzalanmış "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında" fərmana əsasən onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşları hesab edilir.

Azərbaycanda əhalinin milli tərkibində həm sayca, həm də xüsusi çəkisinə görə azərbaycanlılardan sonra ikinci yeri ruslar tutur. Ruslar Azərbaycanda 1830-cu illərdən məskunlaşmağa başlamışlar. Çar Rusiyası dövründə minlərlə rus ailəsi Azərbaycanda məqsədli surətdə məskunlaşdırılmışdır. XIX əsrdə Azərbaycana köçürülən rus əhalisini iki qrupa bölmək olar.

Həmin əsrin 70-80-ci illərindən sonra burada məskunlaşan rusların bir qismi müflisləşmiş və yerlərdə torpaqdan məhrum olmuş kəndlilər, digər qrup isə xristian dininin müxtəlif cərəyanlarına məxsus olan təriqətçilər idi. XX əsrin 20-30-cu illərində respublikaya rusların miqrasiyası güclü olmuşdur. Onlar təsərrüfatın müxtəlif sahələrinə aid mütəxəssislərdən, alimlərdən, fəhlələrdən ibarət idi. İlk öncə Şamaxı bölgəsində məskunlaşmışlar. Kompakt halda Şamaxı rayonunun Çuxuryurd, İsmayıllı rayonunun İvanovka kəndində, Gədəbəy rayonunun Novosaratovka,

Novoivanovka, Qorelsk və Slavyanka kəndlərində, Goranboy rayonunun Rus Borisi kəndində, Qızmeydan və Nağaraxana kəndlərində yaşayırlar. 1917-ci il Oktyabr inqilabından əvvəl burada 100-ə yaxın rus kəndi mövcud idi. XX əsrin əvvəlindən 1940-1950-ci illərə qədər ruslar Bakıda əsas milli azlıqlardan idi. Beləliklə, mən İsmayıllı rayonu ərazisində yaşayan ruslar haqqında məlumat verirəm.

Azərbaycan ərazisində rusların məskunlaşdığı ərazilərdən biri də İvanovkadır. İvanovka Azərbaycan Respublikasının İsmayıllı rayonunun inzibati ərazi vahidində kənddir. İsmayıllı rayonunun mərkəzindən 12-14 km cənub-qərbdə, Acınohur ön dağlığında yerləşir. Kəndin əsası da məhz 1847-ci ildə çar hakimiyyəti dövründə Qafqaza köçürülmüş ruslar tərəfindən qoyulmuşdur. Kəndin adı da onun yaradıcısı olan İvan Perşinin şərəfinə adlandırılmışdır.

Rus əhalisi arasında toy bir gün davam edər və toy məclisində bəy və gəlin əyləşər, iştirakçılar da onların başına toplaşardılar. Rus toylarında N. Kalaşevin yazmağına görə oğlan evində iştirakçılara üç dəfə yemək verilərdi. XIX əsr və XX əsrin əvvəllərində rus kəndlilərinin keçirdiyi toy mərasimlərinin təsiri gec də olsa Azərbaycan əhalisi arasında da görünməyə başladı. Bəylə gəlinin toyda əyləşməsi, toyların banket halında keçirilməsi kimi ənənələr azərbaycanlılara da keçməyə başladı (1, 376).

Respublikamızda elmi kadrların yetişdirilməsində, müxtəlif elm sahələrinin inkişafında da rus ziyalılarının böyük rolu olmuşdur. Bu baxımdan keoloq-neftçi akademik İ.M.Qubkinin, respublikada fəlsəfi məktəb yaratmış akademik A.O.Makovelskinin, akademik İ.İ.Meşşaninovun, professor M.V.Abramoviçin və onlarla başqalarının xidmətləri əvəzsizdir (1, 386).

Adətən, multikulturalizm tolerantlıq səviyyəsinin yüksəlməsinə olan töhfəsi ilə gərəkli hesab edilir. Nümunə olaraq Azərbaycanda İslam tolerantlığı çərçivəsində burada yerləşən müxtəlif dinlərin ibadətgahlarının eyni zamanda fəaliyyət göstərməsini, hər bir dinə qarşı hörmət və sərbəstlik qoyulmasını və s. qeyd etmək olar.

16 noyabr Beynəlxalq tolerantlıq günüdür. Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Belə bir günün təsis olunmağının əsas məqsədi qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Ölkəmizdə multikultural ənənələr, dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Müqəddəs bayramlarımızdan sayılan Ramazan bayramında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir.

Bakıda Qız Qalasının qarşısında Müqəddəs Varfolomeyə həsr olunmuş ilk kilsə tikilmişdir. Kilsə Varfolomeyin əfsanəvi edam yerində, Qız Qalasının qarşısındakı meydanda yerləşib. Lakin SSRİ-nin dinə qarşı vandalizm siyasəti nəticəsində Varfolomey kilsəsi də 1937-ci ildə dağıdılıb. Möhkəm dini inancları

olan xristianlar bu gün də apostolun mövcud olmuş meydanını ziyarət edir və dualarını edirlər (1, 26).

Rus xalqından başqa Azərbaycan Respublikasında yaşayan ən iri etnik qruplardan biri də avarlardır. Avarlar əsasən Zaqatala və Balakən ərazisində məskunlaşmışlar. Onların Azərbaycanda sayı 50 mindən artıqdır. Bu rayonların ərazisində avar dilində ümumilikdə 260 sinfi olan 19 məktəb fəaliyyət göstərir və bu məktəblərdə 7 minə yaxın şagird təhsil alır. Yerli əhali ilə sıx qaynayıb-qarışan avarlar, əsasən Balakənin Qabaqçöl qəsəbəsində, Katex, Gərəkli, Mahamalar kəndlərində yaşayır və İslam dininə etiqad edirlər (6).

Azərbaycanda Avar Mədəniyyət Mərkəzi 2007-ci ildə yaradılsa da, 2008-ci ildən fəaliyyət göstərir. Cəmiyyətin əsas məqsədi Azərbaycanda yaşayan avarların mədəniyyətinin, adət-ənənələrinin, folkloru və dininin özünəməxsusluğunun qorunub saxlanmasına xidmət edir. Avar toy adətlərinin özünəməxsusluğuna gəldikdə isə onu deyə bilərik ki, nişan mərasimi keçirilmir, elçilikdən az sonra toy mərasimi keçirilir, evlənəcək olan oğlan üçün mütləq ayrı ev tikilir, onun təsərrüfatı ayrılırdı. Qohumla evlənmə əsas yer tutur. Avarlarda da toy azərbaycanlılardakı kimi üç gün davam edir (1, 290-291).

Azərbaycanda məskunlaşan azsaylı xalqlardan biri də yəhudilərdir. Yəhudilər XVI əsrdə İrandan gəlmişlər. Azərbaycanda üç yəhudi icması – dağ yəhudiləri, Avropa yəhudiləri (aşkenazi) və gürcü yəhudiləri icmaları mövcuddur. Dağ yəhudiləri hazırda ölkədəki yəhudi diasporu arasında çoxluq təşkil edir. Onların dili tat dilidir, lakin danışıqlarında çoxlu türk, fars və rus sözləri vardır. Onların yeganə varisləri olan dağ yəhudiləri təkcə Quba rayonundakı Qırmızı Qəsəbədə kompakt halında deyil eyni zamanda Oğuz rayon mərkəzində və Bakıda yaşayırlar. Qədim Alban tarixçisi Musa Kalankatuklu dağ yəhudilərinin Qafqaza gəlməsini e.ə. I əsrə aid edir. Başqa məlumatlara görə, onlar Şərqi Qafqaza Sasani hökmdarı I Xosrov Nuşirəvan tərəfindən köçürülmüşlər. Onlar "Əhdi-ətiq"lə yanaşı, "Talmud"u və ravvin rəvayətlərini də dinin əsas mənbələri hesab edirlər. Qeyd etdiyimiz kimi, yəhudilərin məskunlaşdığı ərazilərdən biri də Quba rayonunda yerləşən Qırmızı Qəsəbədir. Yəhudilər buraya əsasən Abbasqulu ağa Bakıxanovun dəstəyi ilə köçürülmüşdür. Bu ərazi 1926-cı ilədək "Yəhudi Qəsəbəsi" adlandırılıb və əhalinsinin 99%-i yəhudidir (6). Qəsəbədə yəhudilərin dini məbədi olan üç sinaqoq və bir rus dilli orta məktəb fəaliyyət göstərir. Qəsəbədə yaşayan yəhudilər Azərbaycan adət-ənənələrinə hörmət bəsləyirlər. 1997-ci ildə qəsəbədə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir. Yəhudilər milli bayramlarımızın hər birində də yaxından iştirak edirlər. Qırmızı Qəsəbədə ulu öndər Heydər Əliyevin adını daşıyan park salınmışdır. Burada fəaliyyət göstərən məktəblərdə dünya yəhudilərinin danışdığı ivrit dili tədris olunur. XVIII əsrdə Qırmızı Qəsəbə "Qafqazın Yerusəlimi" adını almışdır. Qırmızı Qəsəbədə yerləşən yəhudilərin dini məbədi sayılan "Giləki" adlanan sinaqoq Cənubi Azərbaycanın Gilan vilayətindən gəlmiş mühacirlər tərəfindən inşa edilmişdir. Məbədin memarı Gilel ben Xaimdir. Keçmişdə Giləki sinaqoqunda dağ yəhudilərinin digər

məbədlərində olduğu kimi qadınlar üçün ayrıca otaqlar yox idi. Qadınlar yalnız bayram vaxtı bura gəlirdilər və sinaqoqun həyətində otururdular. Yəhudilərin illik dini tsiklində dindarın həyatında özünəməxsus mərhələni təcəssüm edən bayramlar xüsusi yer tutur. Bu tsikl yeni ilin qeyd edilməsi (Roş-xaşana) ilə payızda başlayır. "Talmud"a əsasən, Roş-xaşana növbəti ilin Tanrı tərəfindən insanların əməllərinin qiymətləndirilməsinin məhşər günüdür. Bu gün xüsusi təntənəli sinaqoq ibadəti zamanı qoyun buynuzundan şeypur (şofar) çalınır, yeni ilin ilk gecəsində isə şirnilər –bala batırılan, alma yaxud piroq yeyilir. İkinci gecə təzə yetişmiş bar gələn ilin bolluğuna ümidlərin rəmzi kimi yeyilir.

Mərkəzi yəhudi bayramı isə Pasxadır (Pesax). Bu gün bütün dünyanın yəhudiləri Misir əsarətindən azad olunmalarını qeyd edirlər. Bayramın keçirildiyi səkkiz gün ərzində yalnız şirin çörək (matsu) yeməyə icazə verilir. Buna görə Pasxanı bəzən "Opresnok" bayramı adlandırırlar.

2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabr ayında Bakıda "Od-Avner" Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır.

Udinlər, Udilər – Azərbaycanda yaşayan ən qədim azsaylı xalqlardan biridir. Onlar kompakt halda Oğuz şəhərində, həmçinin Qəbələ rayonunun Nic qəsəbəsində yaşayırlar. Udilər udi dilində danışırlar. Bu xalq arasında eləcə də azərbaycan, rus, gürcü və başqa dillər geniş yayılmışdır. Onların dini xristian dinidir. Bu etnosun əcdadları Utilərdir. Utilər haqqında hələ eramızdan əvvəl V əsrdə yaşamış yunan müəllifi Herodotun "Tarix" əsərində məlumat var. Altı min əhalisi olan Nic qəsəbəsində 3700 udin yaşayır və burada üç kilsə, iki məscid var. Ümumilikdə isə ölkədə 4000 udin yaşayır ki, onların 300-ü Oğuz və Bakıda qeydiyyatdadır (6). Nic qəsəbəsindəki məktəblərin ibtidai siniflərində udin dili tədris olunur. Qəsəbədə udinlər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Nic kəndində mədəniyyət mərkəzi də fəaliyyət göstərir. Mərkəz udinlərin qədim adət ənənələrinin inkişafı və mühafizəsi ilə məşğuldur. Qeyd edək ki, keçmiş sovet dövründə udinlərə öz bayramlarını qeyd etmək qadağan olunurdu. Yalnız 2002-ci ildə əsaslı təmir və bərpa olunan "Cotari" məbədi udinlərin istifadəsinə verilib. Cotari alban-udi kilsəsi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilmişdir. İsa peyğəmbərin həvarilərindən (apostol) olmuş müqəddəs Yeliseyin şərəfinə inşa edilmiş bu kilsə böyük zaldan və onun üzərində ucaldılan kiçik zəng qülləsindən ibarətdir. Nic qəsəbəsi tolerantlığın kiçik modeli hesab edilir (4).

Azsaylı xalqlar haqqında danışarkən onların tanınmış nümayəndələrindən məlumat vermək yerinə düşərdi. Azərbaycanda yaşamış digər xalqların nümayəndələrindən nümunə kimi Fatma Muxtarovanı, Hökumə Qurbanovanı, Sidqi Ruhullanı, Nodar Şaşıqoğlunu və başqalarını qeyd etmək olar. Azərbaycan SSR Xalq Artisti (1940) və Gürcüstan SSR Əməkdar Artisti (1936) olan Muxtarova Fatma Səttar qızı mənşəcə Qacar sülaləsindəndir 26 fevral 1893–cü ildə İranda Urmiya şəhərində anadan

olmuşdur. Atası fars, anası isə tatar olmuşdur. Nodar Şaşıqoğlu deyəndə hər kəsin ağlına "Uzaq sahillərdə" filmi və onun canlandırdığı obraz olan Mehdi Hüseynzadə gəlir. Bu heç də təsadüfi deyil. Çünki o, öz rolunun peşəkarı idi. Nodar İzzətoviç Şaşıqoğlu 13 mart 1927-ci il, Batumidə doğulmuşdur.

Azərbaycan dramatik teatr və kino aktyoru, Azərbaycan və Rusiya Xalq Artisti olan Nodar Şaşıqoğlu ilk rolunu "Mosfilm"də Albaniya dövlətçiliyinin əsasını qoyan Georgi İsgəndərbəyov haqqında çəkilən filmdə oynadı. O, orada türk imperiyasının əsasını qoyan Mehmet bəy Fatehi oynamışdır"Uzaq sahillərdə" filmində Mehdi Hüseynzadənin canlı obrazını yaratmışdır. "Əsl dost", "Mateo Falkone", "Onun böyük ürəyi", "Bizim küçə", "Leyli və Məcnun" filmlərinə də çəkilmişdir.

Ancaq o, ifa etdiyi Məcnun obrazını daha çox sevirdi. Çünki o, Məcnunu obraz olaraq yaratmaqla kifayətlənməmişdi, həm də onu səsləndirmişdi. Bu da hər bir aktyor üçün xüsusi bir zövqdür. O, 1983-cü ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülüb. 2007-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunub. Nodar Şaşıqoğlu 12 aprel 2013-cü ildə uzun sürən xəstəlikdən sonra dünyasını dəyişmişdir.

Bu gün azərbaycanlılar dünyanın bütün qitələrində, ölkələrində yaşayır, doğma Vətənin səsinə səs verir, qloballaşma və inteqrasiya proseslərində yaxından iştirak edirlər. Hazırda azərbaycanlılar doğma vətənləri olan Azərbaycan Respublikası (Şimali Azərbaycan) və Cənubi Azərbaycanla yanaşı, aborigen əhali kimi toplu halda, ən qədim zamanlardan başlayaraq İranın müxtəlif bölgələrində, İraq, Şərqi Anadolu, Gürcüstan (əsasən ölkənin cənub-şərqindəki tarixi Borçalı mahalı ərazisində), Dağıstan və başqa yerlərdə də yaşayırlar.

Azərbaycanda düşünülmüş multikulturalizm siyasəti olmadan ölkə sabit inkişaf yoluna qədəm qoya bilməz. Azərbaycanın birgəyaşayış modelini formalaşdırması və onu dünyaya təqdim etməsi bariz nümunələrdəndir. Ölkəmizdə müxtəlif xalqların nümayəndələri yaşayır və harmonik inkişaf edirlər. Birgəyaşayışın Azərbaycan modeli haqqında düşünmək və bu düsturu digər ölkələrdə də tətbiq etmək ancaq bəşəriyyətə uğur gətirə bilər.

Beləliklə, multikulturalizmin geniş mənada əsas mahiyyəti ondan ibarət oldu ki, dövlət cəmiyyətdəki müxtəlif və biri-birindən fərqli xalqların fərdlərinin, yaxud sosial qruplarının arasında heç bir fərq qoymur. Bu sosial qrupların heç birini digərindən üstün, yaxud aşağı hesab etmir. Bütün mədəniyyət daşıyıcılarına bərabər hüquqlar verir, dəyərlərə müdaxilə etmir.

Günümüzdə multikulturalizm tədricən ümumavropa probleminə çevrilməkdədir. Bu da immiqrasiya və inteqrasiya sahəsində siyasətlə bağlıdır. Multikulturalizm bütün bu problemlər üçün özünün, mübahisəsiz və qəti olmasa da müəyyən həlli yolunu təklif edir. Onun ümumavropa probleminin cavabına çevrilib-çevrilə bilməməsi məsələsini isə zaman göstərəcəkdir.

## Ədəbiyyat :

1. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları.-Bakı: Elm,2000. - 440 s.
2. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. – Bakı : Azərnəşr, 1994. - 248 s.
3. Бретаницкий. Л.С. Архитектура Азербайджана / Л.С Бретаницки., А.В. Саламзаде, М. Усейнов. – М., 1969. - 512 с.
4. Мобили Р. Удины: язык, религия и этнография. – Баку,2011.
5. www.azerbaijan.az
6. www.stat.gog.az (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi).

***Захра Ганиева***

## МУЛЬТИКУЛЬТУРАЛИЗМ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ЭТНИЧЕСКИХ МЕНЬШИНСТВ

### Резюме

Феномен мультикультурализма как мощное и противоречивое явление находится в центре внимания исследователей, политиков и интеллектуальной элиты общества. Азербайджан издревле являлся полиэтничной страной. Здесь на протяжении многих веков жили различные народы, народности и этнические группы.

***Zahra Ganiyeva***

## MULTİCULTURALİİM AT CONTEXT OF THE ETHNİC MİNORİTİES İN AZERBAİJAN

### Summary

The multiculturalism phenomenon as the powerful and inconsistent phenomenon is in the center of attention of researchers, politicians and intellectual elite of society. Azerbaijan has been polyethnic country since the ancient times. For many centuries various nations, nationalites and ethnic groups populated Azerbaijan.